

# Duyğu yarpaqları

## Çinar

*Gənclik illərindən əzizsən mənə,*
*Ay uca göylərə ucalan çinar!*
*Bura yolum düşüb, gəlmişəm yenə,*
*Bu ana torpaqdan güc alan çinar!*

*Bulaq da burdadı, çay da burdadı.*
*Gecələr ulduz da, ay da burdadı.*
*Söylə, mavigözlü o qız hardadı?*
*Bir vaxt başımıza tac olan çinar!*

*Dilim məhəbbətdən burda söz açdı,*
*Eh, burda sevincim qaynadı-daşdı.*
*Burda ürəyimi yar aldı-qaçdı,*
*Sən özün şahidsən, çinar, xan çinar!*

*Hanı, gözlərimə görünmür o qız,*
*İlk sevgi deyilmiş dərdsiz-cəfasız.*
*De görüm, hansımız oldu vəfasız?*
*Yaşıl yarpaqları saralan çinar!*

*Gənclik də ötüşdü o quşlar kimi,*
*O fəsillər kimi, yağışlar kimi.*
*Şirin xatirələr sıxır qəlbimi,*
*Qaytar o günləri, bir də can çinar!*

*Hələ çox sevənlər bura gələcək,*
*Sevgidən danışıb deyib-güləcək.*
*Məndən salam söylə onlara tək-tək,*
*Eşqi, məhəbbəti ay duyan çinar!*

*İşıqlı dünyada nə qədər varam,*
*O qızı, səni də mən unutmaram,*
*Sızladı, göynədi o köhnə yaram,*
*Ayrılıq yamandı, çox yaman, çinar!*

*Cavan budaqları oynadır külək,*
*Nəğməli quşların nə vaxt dönəcək?*
*Sən yalqız qalmısan , indi mənim tək,*
*Sözümdən incimə, sən aman çinar!*

*Başımın telləri daha ağ-qara,*
*Gözlərim yaşarır, baxıram hara...*
*Gedirəm, arxamca boylan yollara.*
*Xatırla Şakiri, hər zaman, çinar!*
*Ay qocaman çinar, qocaman çinar!*

**Şakir Xəyal.**

## Anamı qaytarsalar

***(Anam Cavahirin nurlu xatirəsinə)***

*Üz-gözündən öpərdim,*
*Yoluna gül səpərdim,*
*Qayğısını çəkərdim,*
*Anamı qaytarsalar.*
*Bacılarım sevinər,*
*Kövrəlib gözün silər,*
*Nəvələr deyib gülər,*
*Anamı qaytarsalar.*
*Baş qoyardım dizinə,*
*"Can!"- deyərdim sözünə,*
*İnanmazdım gözümə,*
*Anamı qaytarsalar.*
*Yenidən doğulardım,*
*Böyük oğlan olardım,*
*Qulluğunda durardım,*
*Anamı qaytarsalar.*

**Emin Baratoğlu.**

## ÜMİD

*Dünyada bir ümman var. Suyunu bütün bəşəriyyət daşısa yenə tükənməz. Ümid dəryasıdır o…*

*Mənə varlığım qədər əziz, taleyim qədər şirinsən, mən səni loğmana bənzədirəm. Elə bir loğmana ki, bütün insanlar sənə pənah gətirir. Hələlik həqiqət olmasa da səninlə yaşayırıq, səninlə, ümid! Nə yaxşı ki, bu gəlimli-gedimli, sirli-sehirli dünyamızda sən varsan, ümid.*

*Açıl çiçək kimi, işıq saç günəş kimi, səpələn yollarımıza, ümid. Qoy heç kəs səni itirməsin. Yaşa, ümid, yaşa…*

***Qərənfil Dünyaminqızı.***



## Getdin

*Sən mənim bahar ömrümə*
*Şimşək kimi çaxıb getdin,*
*Dərdli, yaralı gönlümə*
*Həsrət oxu taxıb getdin.*
*Niyə yada döndün belə?*
*Dərdin sözlə gəlməz dilə,*
*Dönüb yazda gələn selə,*
*Yanağımdan axıb getdin*
*Çağırsam yaxın-yadımı,*
*Duyanmazlar fəryadımı,*
*Hicranın zəhər dadını,*
*Dodağıma yaxıb getdin.*
*De, mənsiz yandınmı barı?*
*Dərdimin bitməz qubarı,*
*Görüş yerimizə sarı,*
*Küskün-küskün baxıb getdin.*
*Dinlə qismətin sazını,*
*Oxu tale yazısını,*
*Elsevərin arzusunu,*
*Ürəyində yıxıb getdin.*

***Elsevər Qocayev***

## Oxuma, bülbül

Qəmdən deyim sən də dinlə,
Qoy düşməsin sevgim dilə,
Dərd də yıxdı gülə-gülə,
Oxuma, bülbül, oxuma.
Gülüm bitib qəm üstündə,
Kirpiklərim nəm üstündə,
Dərd taleyim dəm üstündə,
Oxuma, bülbül, oxuma.
Gülə aşiq, dilə həsrət,
Gəl bu dərddən edək söhbət,
Çarəsizəm etmə nifrət,
Oxuma, bülbül, oxuma.
Sənsiz Şəhla edər fəryad,
Eşqim sənsiz olmaz abad,
Olsan əgər sevgimə yad,
Oxuma, bülbül, oxuma.

**Şəhla Xəlilqızı.**



## Yadındamı?

Yadındamı ilk tanışlıq?..
Səhər-səhər, bulaq başı.
Nəzər saldın onda mənə,
Oğrun-oğrun, naşı-naşı.

Su istədim, verdin suyu,
Titrəyirdi əlin sənin.
Bax, həmin gün, həmin an-dan
Əsiriyəm sən gözəlin.

Düz bir ilin tamamında
Elçilərim getdi sizə.
Altı aydan sonra isə
Gəlin gəldin evimizə.
İki övlad bəxş elədin,
Biri oğlan, digəri qız.
Mən işlədim, onları da
Sən böyütdün tamam yalqız.

Dar günümdə daim mənə
Dəstək verib, dayaq durdun.
Nə yaxşı ki, o günlərdə
Mənim ilə sən də vardın.

İndi artıq qocalmışıq,
Qayğımız da oğul-uşaq.
Biz gedəndən sonra yəqin
Xatirələr yaşayacaq.

**Əmirxan Burzuyev.**

## Qayıt gəl

Məni gözü yaşlı qoyub getmisən,
Gəzib haralarda arayım səni?
Könlümü özünə məskən etmisən,
Unutmaz nə günüm, nə ayım səni,
Gəzib haralarda arayım səni?
Həsrətin ömrümə qənim kəsildi,
Səndən ayrı ötən hər anım ildi,
Özünə vəfalı şahzadə bildi,
Ürəkdə tikdiyim sarayım səni,
Gəzib haralarda arayım səni?
Eşqimin ateşi ucalır göyə,
Qayıt gəl, bu odu qoyma sönməyə.
Axı, qayıtmağa, geri dönməyə,
Səsləyir durmadan harayım səni,
Gəzib haralarda arayım səni?
Fəryazam, yanmaram özgə bir oda,
Gəl ki, ömrümüzü verməyək bada.
Hər arzum, muradım sənsən dünyada,
Sanıram günəşim, həm ayım səni,
Gəzib haralarda arayım səni?

**Fəryaz Həmidov.**

## İlk dünyam

Elə ki, yaz gəlir, yerlər oyanır,
Bəzənir dərəsi, düzü kəndimin.
Meşəsi yamyaşıl rəngə boyanır,
Bir şeirə bənzəyir özü kəndimin.

Quşlar fırlandıqca yerin başına,
Sürülər yayılır dağın döşünə.
Baş qoyub uzansan hansı daşına,
Budur, düşünürsən dizi kəndimin.
Adamlar dəstəylə axışır çölə,
Arzular ürəkdə dönür bir selə,
Bar yol aldıqca obaya, elə,
Günəşdən nur əmir yazı kəndimin.

Ulduzlu göyləri tala-taladır,
Çatmaqaş qızları «başa bəladır»,
O mənim ilk dünyam Xırxataladır,
Qoy düşsün dillərə sözü kəndimin.

**Tacəddin Şahdağlı.**

## Yüz yaşlı respublikam

Keçmişin şöhrət-şanın,
Poladdır sənin canın.
Yadlar sənə daş atdı,
Millət səni yaşatdı,
Yüz yaşlı respublikam.
Gözəl, zəngin, mədəni,
Mübarizlər Vətəni.
Varlığımsan, nəşəmsən,
Sən necə möhtəşəmsən,
Yüz yaşlı respublikam.
Böyük Heydər dühası,
Müstəqillik qurubdur.
Dövlətimin başında,
Bu gün İlham durubdur
Yüz yaşlı respublikam.
Şərəfli tarixin var,
Torpağında, daşında,
Qoy səni alqışlasın
Nəsillər min yaşında.
Yüz yaşlı respublikam,

**Rasim Bayram.**

## Aynazım

**(Nəvəmə)**

Mənim ulduzum, ayım,
Həm dənizim, həm çayım,
Allah göndərən payım,
Aynazım, ay Aynazım.
Gözləri sona gözü,
Bal, şəkərdir hər sözü,
Babasının gül üzü,
Aynazım, ay Aynazım.
Dodağı gül qönçəsi,
Səsi bülbülün səsi,
Allahımın töhfəsi,
Aynazım, ay Aynazım.

**Fəxrəddin Babayev.**



## Sənsizlik

Sənsiz günlər yaman sıxır canımı,
Ürəyim odludu, gözlərim nəmli.
Sənsiz yaşamağa ümidim yoxdur,
Nə sağım bəllidir, nə solum bəlli.

Hər səhər şəklini basıb bağrıma,
Hicran yanğısıyla oyanıram mən.
Hər gecə gözündən öpüb gizlicə,
Zülmət qaranlıqla oluram həmdəm.

Acı hicran dərdi, qəmi, qüssəsi,
Məni bir çiçək tək soldurur hər an.
Çəkdiyim ah-nalə, etdiyim fəqan,
Yaralı ceyran tək öldürür müdam.

**Əfsanə Xalisqızı.**

## Uşaqsan

Lap balaca olanda,
Anam dedi uşaqsan.
Həyətdə oynayanda,
Anam dedi uşaqsan.

Məktəbə ötürəndə,
Qayıdıb gətirəndə,
Məktəbi bitirəndə,
Anam dedi uşaqsan.

Artıq yaşa dolmuşam,
Lap ata da olmuşam,
Bax, məəttəl qalmışam,
Anam deyir uşaqsan.

**Mirhəsən Ağayev.**



## Məhəbbət heykəli

Onlar qoşa yaşadı,
Ömür sürdü dünyada.
Xatirə aynasında,
Düşər ömür-gün yada.
Təklənmədi heç biri,
Ayrılıq çox yamandı.
Yıxılarlar, əsmə yel,
Toxunmayın, amandı.
Bir-birinə dayaqdır,
Gedirlər toya, yasa.
Asta-asta, aramla,
Tələsmirlər harasa.
Qarıda nəvaziş var,
Qocada ər qüruru.
Nəvaziş də, qürur da,
Məhəbbətdir dumduru.
Getdilər… Gözlərimdə,
Demirəm söndü onlar.
Məhəbbətdən yonulmuş,
Heykələ döndü onlar.

**Mehrəli Mehrəliyev.**

## Nakam olmasın

Çoxdu bu dünyanın qəmi, sevinci,
Sevinc sevənlərdən qoy yan olmasın.
Eşqin alovunda alışsın hər kəs,
Dünyada bir sevgi nakam olmasın.

İnsan xəyallara dalanda hərdən,
Sevincli anları canlanır hər dəm,
Deyirəm, qoy olsun çox sevinc, az qəm,
Dünyada bir sevgi nakam olmasın.

Yaşayaq dünyada pak sevgi ilə,
Qoy düşsün sevənlər dillərdən-dilə,
Olmasın gözlərdə yaş gilə-gilə,
Dünyada bir sevgi nakam olmasın.

Niyə qəm olmalı sevginin sonu?!
Niyə sevgi olsun uşaq oyunu?!
Gülər hər an dilər Tanrıdan bunu,
Dünyada bir sevgi nakam olmasın.

**Gülər Kərimova.**

## İstək

Bir baxış istədim səndən,
Çox şey istəmədim ki,
Sevgi dolu bir baxış,
Eşqim olsun qəlbində,
Orda bir dünyam olsun.
Ömründən yol istədim,
Bircə yer ürəyində,
Bircə cığır keçməyə,
Çox şey istəmədim ki,
Keçim səssiz, səmirsiz,
Bəlkə məndən qaldı iz.

**Nargilə Qafarova.**

## Ömürlük aldanaram

Bütün sənsiz gecələr,
Ürəyimdə gecələr…
Gündə bir az ömrümə,
Ayrılıqlar biçilər…
Hər gün bir məktub yazıb,
Axşam cırıb ataram…
Özümü uşaq kimi,
Belecə aldadaram…
Məcbur olub birtəhər,
Sevgimizi danaram…
İkinizə də elə,
Ömürlük aldanaram…

**Qoşqar Qaraçaylı.**

## Dəmiraparançay

*Ay Dəmiraparançay,*
*Tufanlar qoparan çay,*
*Səndə bir el gücü var,*
*Kükrəyən sel gücü var.*
*Dediyini edirsən,*
*Gücünlə hər necə var.*
*Ay Dəmiraparançay,*
*Daş, qaya qoparan çay,*
*Mənbə Tufandağ özü,*
*Cənuba tutub üzü,*
*Sən hər yay suvarırsan,*
*Bağı, bostanı, düzü.*
*Ay Dəmiraparançay,*
*Dağlan qoparan çay,*
*Gücün buludlardadı,*
*Yağışdadı, qardadı.*
*Yay köməyə çatırsan,*
*Kim su üçün dardadı.*
*Ay Dəmiraparançay,*
*Hay-haray qoparan çay.*
*Sən dağları sökürsən,*
*Uçurursan, tökürsən.*
*Gətirdiyin daş, qumla,*
*Yol, kənd, şəhər tikirsən.*

**Əhməd Məmmədli.**